

# «Mülki müdafiə sahəsində yardım göstərilməsi üzrə Çərçivə Konvensiyası»nı Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. «Mülki müdafiə sahəsində yardım göstərilməsi üzrə Çərçivə Konvensiyası»nı Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsinin və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi İsfəndiyar Bəxtiyar oğlu Vahabzadəyə verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Çərçivə Konvensiyasını Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsinin və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi İsfəndiyar Bəxtiyar oğlu Vahabzadəyə verilməsi barədə Mülki Müdafiə Beynəlxalq Təşkilatına müvafiq bildiriş göndərsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 4 iyul 2001-ci il***

***№ 760***